# “BEYNƏLXALQ İNFORMASİYA VƏ REGİONAL ARAŞDIRMALAR” (BİRA) İCTİMAİ BİRLİYİ “FƏTƏLİ XAN XOYSKİ ALİ MÜKAFATI”NI VƏ “ƏHMƏD BƏY AĞAOĞLU ALİ MEDİA MÜKAFATI”NI TƏSİS EDİB



Bu barədə kult.az-a məlumat verən təşkilat sədri Zaur Qəriboğlu birliyin idarə heyətinin iclasında verilən qərarı şərh edərkən, bunları deyib:

***“Azərbaycan dövlətinin jurnalislərə, media qurumlarına olan diqqət və qayğısı danılmazdır. Biz də QHT olaraq, bu sahədə fəaliyyət göstərən insanların qiymətləndirilməsini, mükafatlandırılmasını özümüzə borc hesab edirik. Bu üzdən də birliyimiz “Fətəli Xan Xoyski Ali Mükafatı”nı təsis edərək, ildə iki dəfədən çox olmayaraq, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında xidmətlərinə görə fərqlənən şəxslərə təqdim edəcək. Həmçinin vətənpərvərliyin təbliğində mediada xidmətlərinə görə fərqlənən şəxslər isə tərəfimizdən “Əhməd bəy Ağaoğlu Ali Media Mükafatı” ilə təltif olunacaq”.***

BİRA sədri bu mükafatlardan əlavə, informasiya müharibəsində Azərbaycan həqiqətlərinin yayılmasında xidmət edən şəxsləri **“İnformasiya müharibəsində fəaliyyətinə görə” Debüt Diplomu**, sosial media hesablarında Azərbaycanın haqq səsinin bir neçə dillərdə yayımını həyata keçirən istifadəçilər isə **“Sosial mediada Azərbaycan həqiqətlərini təbliğ etdiyinə görə” Fəxri Fərmanla** təltif ediləcəklərini qeyd edib.